# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 21** **Bakı şəhəri, 25 yanvar 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1056; 2022, № 3, maddə 268, № 5, maddə 542) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı"na aşağıdakı məzmunda 17-3-cü hissə əlavə edilsin:

"17-3. Zəngilan Beynəlxalq Hava Limanında dövlət sərhədindən buraxılış məntəqəsi (Zəngilan şəhəri).".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

Xalq qəzeti .- 2023.- 26 yanvar.- S.2.